Azərbaycan Respublikasının Səfirliyi
Cakarta şəhəri

Jl. Mas Putih Blok D 29
Grogol Utara Kebayoran Lama
Jakarta Selatan 12210
Tel: 5491939
Faks: 5491745
E-mail: azerbembjkt@u.net.id

Press-reliz

8 aprel 2008-ci ildə Azərbaycan Respublikasının İndoneziyadakı Səfirliyi "Azərbaycana qarşı mübarizə: mədəni irsin hədəfə alınması" kitabının təqdimatını keçirmişdir.

Kitab Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə vurduğu ziyan barədə məlumatlarlardan ibarətdir.

Azərbaycanın 20 % torpaqları, Dağlıq Qarabağ və ona bitişik yeddi rayonu on dörd ildir ki Ermənistanın işğalı altındadır. İşğal nəticəsində 738 abidə, 28 muzey, 14 memorial kompleks, 1107 mədəniyyət ocaqları, 800 ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 798 tibb mərkəzi, 927 kitabxana, 6 dövlət teatrı, 10 məscid dağıdılmış, yandırılmış, talan edilmiş, ümumi ziyanın həcmi 60 milyon ABŞ dolları etmişdir.

Dünya mədəniyyəti üçün əhəmiyyətli olan tarixi və mədəni abidələrin dağıdılmasına yönələn düşünülmüş siyasət Azərbaycan üçün sağalmaz zərbədir. Ermənistanın siyasəti Azərbaycanın tarixi və mədəni irsinin izlərini silmək, tarixi faktları saxtalaşdırmaq və ərazi iddialarına bəraət qazandıraraq ərazilər "qədim zamanlardan" Ermənistana mənsubluğunu sübuta yetirmək məqsədi daşıyır.

Azərbaycan, beynəlxalq ictimaiyyəti tarixi və mədəni abidələrin dağıdılmasına son qoymağa və BMT TŞ-nın 14 mart 2008-ci il tarixli 62/243 saylı qətnaməsində nəzərdə tutulduğu kimi Ermənistan işğalçı qüvvələrinin Azərbaycanın ərazilərindən çıxarılmasına sövq etməyə çağırır.

9 Aprel 2008-ci il